# Görkəmli ədəbiyyat, incəsənət və dövlət xadimləri Elçin haqqında



Elçin. Aspirantlıq çağları

"Elçinin ədəbi hadisələrə obyektiv yanaşması, yeri düşdükcə kəskin polemikalara girməsi, işin ağırlığından qorxmaması, mühüm elmi-bədii problemlərə nəzəri əsaslarla yanaşması əsərinin ("Tənqid və nəsr") sanbalını xeyli artırmış, bu əsəri ləyaqətli bir tədqiqata çevirmişdir".

**Mir Cəlal PAŞAYEV**

"Elçin, əzizim! Siz hələ gəncsiniz. Həmişə belə qalın. Sizin 50 yaşınızı ürəkdən təbrik edirəm. Bunu da bilirəm ki, yaradıcı ziyalı üçün əlli yaş ikinci gənclik deməkdir. Həm də sənətinə uyğun, istedadını əməklə zənginləşdirən, yaradıcılıq məsuliyyətilə yaşayan, hər işində dəqiq sizin kimi oğul üçün".

**Mirvarid DİLBAZİ**

"Elçin saxtanı həqiqətdən, elmi-nəzəri mülahizəni doqmatizmdən, ehkamçı və subyektiv fikirlərdən seçməyi bacarır. Belə hallarda o, cəsarətlə tənqid edir, amma ehtiram və təvazökarlıq cızığından da kənara çıxmır".

**Mehdi MƏMMƏDOV**
*SSRİ Xalq artisti, professor*

"Hörmətli Elçin! "Ölüm hökmü" romanını həvəslə, amma tələsmədən hər mətləbi, hər eyhamı içə-içə, ağıl və hiss süzgəcindən keçirə-keçirə oxudum. Yaşadığım acı illəri, qorxu və təlaş dolu illəri yenidən yaşadım və dərhal sənin yaşını düşünüb heyrətləndim. Çünki əzab, işgəncə, qorxu və təlaş dolu o illəri sən bir insan kimi yaşamamısan, amma yazıçı kimi yazmısan. O amansız və dəhşətli illəri bu qədər təbii və bu qədər inandırıcı şəkildə qələmə ala bildiyinə təəccübləndim. Sən o illərin müsibətlərini o qədər təbii qələmə almısan ki, bunlar özündən yaşlıların söhbətlərindən deyil, yalnız şəxsi müşahidənin məhsulu ola bilər - qənaətinə gəlmək olmur... Əzizim Elçin, sən qələminin qüdrətilə o illəri bir daha mənim qəlbimdən keçirib, məni bir oxucu kimi sarsıda bildinsə, demək, burada təsvir etdiyin hadisələrin təbiiliyinə görə, sənətin sehrinə və istedadın gücünə heyrətlənmək lazımdır. Beləliklə, sən məni qələminlə bir daha istedadın gücünə və sənətin qüdrətinə inandırdın".

**Bəxtiyar VAHABZADƏ**

"Elçin müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Bədii yaradıcılıq sahəsində onun nailiyyətləri göz qabağındadır... Elçin tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Onun tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır".

**Kamal TALIBZADƏ**
*Akademik*

"Elçin İraqın o zamankı diktatoru Səddam Hüseynlə görüşərək, nümayəndə heyətimizin Kərkükə buraxılması məsələsini çox israrlı şəkildə qaldırmış və Səddamın buna razılıq verməsinə nail olmuşdu".

**Qəzənfər PAŞAYEV**
*Professor*

"Hörmətli Elçin! Məşhur "altmışıncı illər nəslinin ən istedadlı nümayəndələrindən biri kimi siz öz bədii əsərlərinizlə xalqımızın arzularını ifadə etmiş, mürəkkəb həyat hadisələrinə şirə qatmadan həqiqəti qələmə almış və milli ədəbiyyatımızı respublikanın hüdudlarından kənarlarda da layiqincə təmsil etmisiniz. Sizin hekayə, povest və romanlarınız Azərbaycan demokratik ictimai fikrində milli-vətənpərvərlik istiqamətinin inkişafında digər dəyərli ədəbiyyat nümunələri ilə birlikdə ciddi rol oynamışdır. Siz, eyni zamanda görkəmli ədəbiyyatşünas alim və tənqidçi kimi də ədəbiyyatımızın yaradıcılıq nailiyyətləri əldə etməsi naminə çalışmısınız".

**Əbülfəz ELÇİBƏY**

"Elçin müasir Türkiyə ədəbiyyatından və ədəbi prosesdən bəhs edərkən belə bir fikri əsas götürür ki, ədəbiyyat dövrün mühüm siyasi-ictimai problemlərindən kənarda qalmamalı, həmişə öz xalqının ictimai marağı keşiyində dayanmalıdır, bilavasitə həyatdan bəhrələnməlidir. O, qabaqcıl dünya ədəbiyyatından faydalanmaqla birlikdə, milli ədəbi ənənələrinə arxalanmalıdır... Elçin "Yaxın, uzaq Türkiyə" əsərində özünü işgüzar bir təşviqatçı kimi göstərir".

**Həmid ARASLI**
*Akademik*